# FƏALİYYƏT HESABATI 2025



azsığorta

# 1. HESABATIN XÜLASƏSİ

## 1.1. HESABATDA AŞAĞIDAKI BÖLMƏLƏR MƏLUMATLAR GÖSTƏRILMIŞDIR:

1.1.1. Sığortaçının institusional fəaliyyəti və biznes əməliyyatlarının nəticələri:

AZSIĞORTA ASC-nin əsas prioritetləri daha çox əmlak risklərini sığortalanması və təkrarsığorta fəaliyyətinin genişləndirilməsi, habelə aqrar sığorta sahəsində aparıcı sığorta şirkətlərindən biri olmaqdır. Şirkət geniş regional filial və nümayəndəlik şəbəkəsinə mövcuddur. Cəmiyyət həm coğrafi, həm də müştəri sayı baxımından yüksək diversifikasiya edilmiş portfelə malikdir.

2025-ci il üzrə cəmiyyətin ümumi gəlirləri 13.3 mln. manat, ümumi xərcləri isə 11.1 mln. manat təşkil etmişdir. Hesabat dövründə xalis mənfəət 1.75 mln. manat olmuş və əvvəlki illə müqayisədə artım qeydə alınmışdır. İnvestisiya gəlirləri əsasən istiqrazlar və depozitlər üzrə formalaşmış, investisiya portfelinin ümumi həcmi 25.8 mln. manata çatmışdır.

1.1.2. Korporativ idarəetmə çərçivəsi:

Cəmiyyət korporativ idarəetmə sistemlərinin təkmilləşdirilməsini strateji prioritet kimi müəyyən etmişdir. Bu istiqamətdə təşkilati strukturun yenidən qurulması, səlahiyyət bölgüsünün təkmilləşdirilməsi, daxili siyasət və prosedurların yenilənməsi üzrə tədbirlər həyata keçirilmişdir. Cəmiyyətin maliyyə hesabatları yerli və xarici müstəqil auditorlar tərəfindən yoxlanılır.

1.1.3. Aktivlərin və öhdəliklərin təsnifatı:

Cəmiyyətin aktivlərinin əsas hissəsini investisiya aktivləri təşkil edir. İnvestisiya portfelinə dövlət və qeyri-dövlət istiqrazları, səhmlər və bank depozitləri daxildir. 2025-ci ilin sonuna investisiyaların ümumi məbləği 25.8 mln. manat olmuşdur. Portfeldə dövlət istiqrazları üstünlük təşkil etmiş, eyni zamanda qeyri-dövlət istiqrazlarına investisiyalar artmışdır. Sığorta öhdəlikləri əsasən sığorta ehtiyatlarından ibarətdir. Aktiv və passivlərin idarə olunması sisteminin təkmilləşdirilməsi cəmiyyətin əsas strateji hədəflərindən biridir.

1.1.4. Kapitalın idarə edilməsi:

Cəmiyyət kapitalın dayanıqlığının qorunmasını və maliyyə sabitliyinin təmin edilməsini əsas məqsəd kimi müəyyən etmişdir. Hesabat dövründə kapitalın gəlirliliyi (ROE) 9%, aktivlərin gəlirliliyi (ROA) isə 6% təşkil etmişdir. İnvestisiyaların səmərəliliyi əvvəlki illə müqayisədə artaraq 10%-ə çatmışdır.

1.1.5. Sığortaçının bazar davranışları:

Cəmiyyət bazarda əsasən əmlak sığortası seqmentində fəaliyyət göstərir və bu istiqamətdə bazar mövqeyinin gücləndirilməsini strateji hədəf kimi müəyyən etmişdir. Şirkət müştəri məmnuniyyətinin artırılması, xidmət keyfiyyətinin yüksəldilməsi, rəqəmsal satış kanallarının inkişaf etdirilməsi və yeni rəqabətli məhsulların yaradılması istiqamətində fəaliyyət aparır. Bununla yanaşı, təkrarsığorta satışlarının artırılması, aqrar sığorta portfelinin genişləndirilməsi və çarpaz satış mexanizmlərinin inkişaf etdirilməsi üzrə tədbirlər həyata kemirir.

# 2. SIĞORTAÇININ İNSTİTUSİONAL FƏALİYYƏTİ VƏ BİZNES ƏMƏLİYYATLARININ NƏTİCƏLƏRİ

## 2.1. HESABATDA AŞAĞIDAKI BÖLMƏLƏR MƏLUMATLAR GÖSTƏRİLMİŞDİR:

2.1.1. Sığortaçının adı, təşkilati-hüquqi forması, VÖEN-i, hüquqi və faktiki ünvanı, sığorta fəaliyyətini və mövcud olduğu halda, təkrarsığorta fəaliyyətini həyata keçirməyə icazə verən lisenziyanın nömrəsi və tarixi barədə məlumatlar:

| | |
|---|---|
| Sığortaçının adı: | "AZSIĞORTA" sığorta şirkəti |
| Təşkilati-hüquqi forması: | Açıq Səhmdar Cəmiyyəti |
| VÖEN: | 1301158021 |
| Hüquqi ünvanı: | Azərbaycan, Bakı şəhəri, Murtuza Muxtarov küçəsi 190 |
| Faktiki ünvanı: | Azərbaycan, Bakı şəhəri, Mikayıl Useynov prospekti 63 |
| Sığorta fəaliyyəti ilə bağlı lisenziyanın nömrəsi və tarixi: | 16.11.2011 tarixində verilmiş 000500 nömrəli lisenziya |
| Təkrarsığorta fəaliyyəti ilə bağlı lisenziyanın nömrəsi və tarixi: | 28.02.2014 tarixində verilmiş 080547 nömrəli lisenziya |

2.1.2. Sığortaçı müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər qrupuna (holdinqə) daxildirsə, şirkətlər qrupunun (holdinqin) adı və əlaqə məlumatları:
Sığortaçı hər hansı şirkətlər qrupuna (holdinqə) daxil deyil.

2.1.3. Sığortaçının fəaliyyət göstərdiyi əsas sığorta sinifləri:
Daşınmaz əmlakın icbari sığortası, Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, Əmlakın yanğından və digər risklərdən sığortası.

2.1.4. Sığortaçının yerli və xarici filial və nümayəndəlikləri, eləcə də törəmə cəmiyyətləri barədə məlumatlar:

**Sığortaçının yerli filialları:**
Qəbələ filialı, Gəncə-Qərb filialı, Sumqayıt-Sənaye filialı, Şirvan-Muğan filialı, Lənkəran-Cənub filialı, Yevlax-Aran filialı, Xaçmaz-Şimal filialı, Naxçıvan filialı.

**Sığortaçının yerli nümayəndəlikləri:**
Şamaxı nümayəndəliyi, Tərtər nümayəndəliyi, Saatlı nümayəndəliyi, Qazax nümayəndəliyi.

Sığortaçının xarici fiial və nümayəndəlikləri, eləcə də törəmə cəmiyyətləri mövcud deyildir.

2.1.5. Sığortaçının yerli və xarici müstəqil auditorlarının adı, əlaqə məlumatları və aparılan audit istiqamətləri barədə məlumatlar:

| Sığortaçının auditorları | Yerli müstəqil auditoru | Xarici müstəqil auditoru |
|---|---|---|
| Adı: | "MandJ Konsaltinq" şirkəti | Baker Tilly Azerbaijan |
| Əlaqə məlumatları: | mandj@list.ru<br>(99450) 495 44 96 | office@bakertilly.az<br>(99412) 404 76 66 |
| Aparılan audit istiqaməti: | İllik maliyyə hesabatlarının yoxlanılması | İllik maliyyə hesabatlarının yoxlanılması və IFRS 17 standartlarına uyğunlaşdırılması |

2.1.6. Qiymətli kağızlar bazarı haqqında qanunvericiliyin tələbləri nəzərə alınmaqla sığortaçının nizamnamə kapitalında müvafiq iştirak payına malik olan səhmdarlar və onların iştirak payları barədə məlumatlar:
Sığortaçının vahid səmdarı – İsmayılov Hikmət Abuzər oğlu. İştirak payı: 100%.

2.1.7. Sığortaçı müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər qrupuna (holdinqə) daxildirsə, şirkətlər qrupunun (holdinqin) təşkilati strukturunda sığortaçının yeri barədə məlumatlar:
Sığortaçı hər hansı şirkətlər qrupuna (holdinqə) daxil deyil.

2.1.8. Sığortaçının inkişaf siyasəti (sığortaçının strateji baxışı, missiya bəyanatı, strateji hədəfləri) barədə məlumatlar:

**Strateji baxış (vizion):**
Daha çox əmlak risklərini sığortalanması və təkrarsığorta fəaliyyətinin genişləndirilməsi, habelə aqrar sığorta sahəsində aparıcı sığorta şirkətlərindən biri olmaqdır.

**Missiya bəyanatı:**
Yüksək korporativ davranışlara malik komanda ilə müştərilərə rəqiblərlə müqayisədə daha keyfiyyətli sığorta xidmətləri təklif etmək, onlara fərdi yanaşmaq və müştəri məmnunluğunu təmin etməkdir.

**Cəmiyyətin 2024-2026-cı illər üzrə əsas strateji hədəfləri:**

**Hədəf 1. Korporativ idarəetmə sistemlərini təkmilləşdirmək**
Prioritet 1.1. Təşkilati-strukturu təkmilləşdirmək
Prioritet 1.2. Səlahiyyət bölgüsünə yenidən baxmaq
Prioritet 1.3. Siyasət və proseduraları təkmilləşdirmək
Prioritet 1.4. Maraqlar toqquşmasını tənzimləmək

**Hədəf 2. İnsan resurslarının idarə edilməsi sistemlərini təkmilləşdirmək**
Prioritet 2.1. HR siaysətinə yenidən baxmaq
Prioritet 2.2. İşçilərin peşəkarlığını artırmaq
Prioritet 2.3. Bütün Cəmiyyət üzrə fəaliyyətin qiymətləndirilməsi və motivasiya sistemini tətbiq etmək

Prioritet 2.4. Komanda ruhunu və komanda əməkdaşlığını artırmaq
Prioritet 2.5. İşəqəbul sisteminə yenidən baxmaq
Prioritet 2.6. Davamçılar sistemini yaratmaq
Prioritet 2.7. Karyera planlaşması sistemini yaratmaq
Prioritet 2.8. Korporativ mədəniyyəti yaxşılaşdırmaq
Prioritet 2.9. Vəzifələrin kateqoriyalaşması və baza əmək haqqı sistemi qurmaq

**Hədəf 3. Maliyyə menecmenti sistemlərini təkmilləşdirmək**
Prioritet 3.1. Maya dəyərinin hesablanması sistemini qurmaq
Prioritet 3.2. Aktiv və passivlərin idarə edilməsi sistemini təkmilləşdirmək
Prioritet 3.3. Maliyyə nəzarətini təkmilləşdirmək
Prioritet 3.4. İnvestisiya siyasətinə yenidən baxmaq
Prioritet 3.5. 17 saylı MHBS-nı tətbiqini başa çatdırmaq və sığorta ehtiyatlarının hesablanmasını avtomatlaşdırmaq

**Hədəf 4. Risklərin idarə edilməsi sistemlərini təkmilləşdirmək**
Prioritet 4.1. Riskləri idarə edilməsi strukturunu yaratmaq
Prioritet 4.2. Risklərin idarə edilməsi siyasəti və risk iştahasını müəyyən etmək
Prioritet 4.3. Risklərin idarə edilməsi sistemlərini yaratmaq (risk xəritəsi, fövqəladə hallar planları, risk hesabatlığı, itki məlumat sistemi və s)
Prioritet 4.4. Risk hesabatlıq sistemi yaratmaq

**Hədəf 5. İT sistemlərini təkmilləşdirmək**
Prioritet 5.1. Rəqəmsallaşmanı genişləndirmək və rəqəmsal satışı inkişaf etdirmək (müştərilərin elektron sifarişi üçün imkan yaratmaq). Süni intellekt vasitələrinin tətbiqinə başlamaq
Prioritet 5.2. Hesabatların avtomatlaşdırılmasını yaxşılaşdırmaq
Prioritet 5.3. İT infrastrukturunu təkmilləşdirmək
Prioritet 5.4. Ehtiyat server mərkəzi yaratmaq

**Hədəf 6. Marketinq və satışı təkmilləşdirmək**
Prioritet 6.1. Yeni rəqabətli məhsullar yaratmaq
Prioritet 6.2. Xidmətlərin səviyyəsini yaxşılaşdırmaq
Prioritet 6.3. Çarpaz satışı stimullaşdırmaq
Prioritet 6.4. Təkrarsığorta üzrə satışları artırmaq
Prioritet 6.5. Qiymət siyasətini təkmilləşdirmək
Prioritet 6.6. Əmlak sığortası portfelinin artırılması üçün tədbirlər görmək
Prioritet 6.7. Aqrar sığorta portfelinin artırılması üçün tədbirlər görmək

2.1.9. Olduğu halda, sığortaçıya verilmiş reytinqlər (reytinq agentliyinin adı, reytinqin verildiyi tarix, sığortaçının cari və əvvəlki reytinqi və s.) barədə məlumatlar:
Sığortaçı reytinq alınması üçün müraciət etməyib.

2.1.10. Olduğu halda, hesabat dövrü ərzində baş vermiş və sığortaçının fəaliyyətində əhəmiyyətli dəyişiklikləri əks etdirən hər hansı digər məlumatlar:
Hesabat dövrü ərzində sığortaçının fəaliyyətində əhəmiyyətli təsir göstərmiş hal baş verməyib.

## 2.2. SIĞORTAÇININ BİR İL ƏVVƏLKİ HESABAT TARİXİ İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ BİZNES ƏMƏLİYYATLARININ NƏTİCƏLƏRİ:

## 2.2.1. Sığortaçının biznes əməliyyatlarının ümumi nəticələri:

| Sığortaçının biznes əməliyyatlarının ümumi nəticələri (manatla) | Hesabat tarixi (31.12.2025) | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | Fərq |
|---|---|---|---|
| **Gəlirlər, o cümlədən:** | **13,313,300.88** | **13,033,045.35** | **280,255.53** |
| Əsas əməliyyat gəlirləri | 8,311,036.53 | 9,093,252.59 | -782,216.06 |
| İnvestisiya gəlirləri | 2,682,443.39 | 2,201,894.07 | 480,549.32 |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi | 1,201,902.20 | 963,696.46 | 238,205.74 |
| Digər gəlirlər | 1,117,918.76 | 774,202.23 | 343,716.53 |
| **Xərclər, o cümlədən:** | **11,068,706.68** | **10,873,739.22** | **194,967.46** |
| Əsas əməliyyat xərcləri | 3,795,281.17 | 3,627,366.65 | 167,914.52 |
| İşlərin aparılması xərcləri | 6,679,911.31 | 5,865,544.86 | 814,366.45 |
| Digər xərclər | 593,514.20 | 1,380,827.71 | -787,313.51 |
| **Maliyyə mənfəəti/zərəri** | **2,244,594.20** | **2,159,306.13** | **85,288.07** |
| **Mənfəət vergisi** | **494,259.90** | **465,747.07** | 28,512.83 |
| **Xalis mənfəət/zərər** | **1,750,334.30** | **1,693,559.06** | **56,775.24** |

## 2.2.2. Əsas sığorta sinifləri üzrə ayrıca göstərilməklə biznes əməliyyatlarının nəticələri:

| Sığorta sinifləri | Hesabat tarixi (31.12.2025) | | | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | | | Fərq | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Hesablanmış sığorta haqları | Sığorta ödənişləri | Zərərlilik dərəcəsi | Hesablanmış sığorta haqları | Sığorta ödənişləri | Zərərlilik dərəcəsi | Hesablanmış sığorta haqları | Sığorta ödənişləri | Zərərlilik dərəcəsi |
| **Şəxsi sığortaya aid olan əsas sığorta sinifləri, o cümlədən:** | **0.00** | **0.00** | | **0.00** | **0.00** | | **0.00** | **0.00** | |
| **Əmlak sığortasına aid olan əsas sığorta sinifləri, o cümlədən:** | **7,456,229.48** | **1,437,314.33** | | **7,989,621.64** | **1,082,049.07** | | **-533,392.16** | **355,265.26** | |
| daşınmaz əmlakın icbari sığortası | 5,559,183.93 | 930,765.79 | 102.64 | 5,770,980.80 | 666,208.35 | 91.82 | -211,796.87 | 264,557.44 | 10.82 |
| əmlakın yanğından və digər risklərdən sığortası | 1,897,045.55 | 506,548.54 | 103.25 | 2,218,640.84 | 415,840.72 | 94.66 | -321,595.29 | 90,707.82 | 8.59 |
| **Mülki məsuliyyətin sığortasına aid olan əsas sığorta sinifləri, o cümlədən:** | **0.00** | **0.00** | | **0.00** | **0.00** | | **0.00** | **0.00** | |
| **Digər sığorta sinifləri** | **854,807.05** | **398,821.34** | | **1,038,818.02** | **445,209.32** | | **-184,010.97** | **-46,387.98** | |
| Digər sığorta sinifləri | 854,807.05 | 398,821.34 | 107.25 | 1,038,818.02 | 445,209.32 | 87.85 | -184,010.97 | -46,387.98 | 19.40 |
| Cəmi | **8,311,036.53** | **1,836,135.67** | | **9,028,439.66** | **1,527,258.39** | | **-717,403.13** | **308,877.28** | |

## 2.3. SIĞORTAÇININ BİR İL ƏVVƏLKİ HESABAT TARİXİ İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ İNVESTİSİYA FƏALİYYƏTİ:

### 2.3.1. Başlıca investisiya aktivləri üzrə məlumatlar:

| İnvestisiyalar | Hesabat tarixi (31.12.2025) | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | Fərq |
|---|---|---|---|
| **İstiqrazlar, o cümlədən:** | **15,411,395.33** | **12,799,851.64** | **2,611,543.69** |
| dövlət istiqrazları | 11,300,982.91 | 11,299,868.42 | 1,114.49 |
| qeyri-dövlət istiqrazları | 4,110,412.42 | 1,499,983.22 | 2,610,429.20 |
| **Səhmlər** | **364,583.00** | **312,500.00** | **52,083.00** |
| **İnvestisiya fondlarına yerləşdirilmiş aktivlər** | **0.00** | **0.00** | **0.00** |
| **Törəmə maliyyə alətləri** | **0.00** | **0.00** | **0.00** |
| **Daşınmaz əmlaklar (öz istifadəsi üçün olmayan)** | **0.00** | **0.00** | **0.00** |
| **Depozitlər** | **10,000,000.00** | **12,000,000.00** | **-2,000,000.00** |
| **Digər investisiyalar** | **0.00** | **0.00** | **0.00** |
| **Cəmi** | **25,775,978.33** | **25,112,351.64** | **663,626.69** |

### 2.3.2. İnvestisiyalardan yaranan gəlirlər və investisiyaların idarə edilməsi xərcləri barədə məlumatlar:

| | İstiqrazlar | | Səhmlər | | Depozitlər | | Daşınmaz əmlaklar | | Digər investisiyalar | | CƏMİ | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 31.12.2025 | 31.12.2024 | 31.12.2025 | 31.12.2024 | 31.12.2025 | 31.12.2024 | 31.12.2025 | 31.12.2024 | 31.12.2025 | 31.12.2024 | 31.12.2025 | 31.12.2024 |
| Faiz / dividend | 1,566,432 | 1,138,019 | - | - | 1,082,090 | 979,665 | - | - | 33,922 | 84,210 | 2,682,443 | 2,201,894 |
| Reallaşdırılmış gəlir/xərc | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Yenidənqiymətləndirmə | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| İnvestisiya xərcləri | 1,037 | 110,438 | - | - | - | - | - | - | - | - | 1,037 | 110,438 |
| Xalis investisiya mənfəəti/zərəri | 1,565,394 | 1,027,581 | - | - | 1,082,090 | 979,665 | - | - | 33,922 | 84,210 | 2,681,406 | 2,091,456 |

## 2.4. SIĞORTAÇININ BİR İL ƏVVƏLKİ HESABAT TARİXİ İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ ƏSAS MALİYYƏ GÖSTƏRİCİLƏRİ:

| **Maliyyə göstəriciləri** | **31.12.2025** | **31.12.2024** |
|---|---|---|
| Kapitalın gəlirliyi (ROE) | 9% | 9% |
| Aktivlərin gəlirliyi (ROA) | 6% | 6% |
| İnvestisiyanın səmərəliliyi | 10% | 9% |

## 2.5. SIĞORTAÇININ BİR İL ƏVVƏLKİ HESABAT TARİXİ İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ SIĞORTA FƏALİYYƏTİNƏ AİD OLMAYAN DİGƏR ƏHƏMİYYƏTLİ GƏLİR VƏ XƏRC MƏLUMATLARI:

Mövcud deyil.

## 2.6. SIĞORTAÇININ İNSTİTUSİONAL FƏALİYYƏTİ VƏ BİZNES ƏMƏLİYYATLARININ NƏTİCƏLƏRİ İLƏ BAĞLI HƏR HANSI DİGƏR ƏHƏMİYYƏTLİ MƏLUMAT:

Mövcud deyil.

# 3. KORPORATİV İDARƏETMƏ ÇƏRÇİVƏSİ

## 3.1. SIĞORTAÇININ KORPORATİV İDARƏETMƏ ÇƏRÇİVƏSİ İLƏ BAĞLI MƏLUMATLAR:

### 3.1.1. Sığortaçının təşkilati strukturu:




- birinci müdafiə xətti
- ikinci müdafiə xətti
- üçüncü müdafiə xətti

3.1.2. Sığortaçının Direktorlar Şurasının, İdarə Heyətinin, habelə ikinci və üçüncü müdafiə xətti üzrə funksiyaları yerinə yetirən struktur bölmələrin əsas vəzifələrinin qısa təsviri:

**DŞ-nın vəzifələri:**

- Cəmiyyətdə ümumi rəhbərliyin və onun fəaliyyətinə nəzarətin həyata keçirilməsi;
- "Sığortaçılarda korporativ idarəetmə Standartları"nın 4.4-4.11-ci bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi;
- Qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələrin icra edilməsi.

**İH-nin vəzifələri:**

- Cəmiyyətin fəaliyyətinin effektiv və səmərəli idarə olunması, maliyyə nəzarəti sisteminin yaradılması, Cəmiyyətin büdcəsinin səmərəli istifadəsi, qanunvericiliyin tələblərinə uyğun olaraq dövlət orqanlarına (qurumlarına) hesabatların təqdim edilməsi və onların düzgünlüyünün təmin edilməsi;
- "Sığortaçılarda korporativ idarəetmə Standartları"nın 9.2.1-9.2.19-cu bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi;
- Qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələrin icra edilməsi.

**Risklərin idarəedilməsi funksiyasının vəzifələri:**

- "Sığortaçılarda korporativ idarəetmə Standartları"nın 12.4.1-12.4.11-ci və 12.5 bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi.

**Komplayens funksiyasının vəzifələri:**

- "Sığortaçılarda korporativ idarəetmə Standartları"nın 15.3.1-15.3.12-ci bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi.

**Aktuar funksiyasının vəzifələri:**

- "Sığortaçılarda korporativ idarəetmə Standartları"nın 14.2, 14.3, 14.4, 14.6, 14.7 və 14.8-ci bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi.

**Daxili audit funksiyasının vəzifələri:**

- "Sığortaçılarda korporativ idarəetmə Standartları"nın 16.10.1-16.10.9-cu bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi.

3.1.3. Sığortaçının fəaliyyət göstərən komitələr, onların əsas vəzifələri və tərkibi haqqında məlumat:

**Riskləri İdarəetmə Komitəsinin tərkibi:**

- Riskləri İdarəetmə Komitəsinin sədri - Rüstəmov İqbal Nəbi oğlu
- Riskləri İdarəetmə Komitəsinin müstəqil üzvü - Maniyev Viladi Məzahir oğlu
- Riskləri İdarəetmə Komitəsinin müstəqil kənar üzvü - İsgəndərov Şükür Fəxrəddin oğlu

**Riskləri İdarəetmə Komitəsinin vəzifələri:**

- "Sığortaçılarda korporativ idarəetmə Standartları"nın 7.1-7.5-ci bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi.

**Audit Komitəsinin tərkibi:**

- Audit Komitəsinin sədri - Qurbanov Elnur Məmməd oğlu
- Audit Komitəsinin müstəqil üzvü - Maniyev Viladi Məzahir oğlu
- Audit Komitəsinin müstəqil üzvü - Rüstəmov İqbal Nəbi oğlu

**Audit Komitəsinin vəzifələri:**

- Audit Komitəsi Qanunda və “Daxili audit haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş vəzifələrin icra edilməsi.

3.1.4. Hesabat dövrü ərzində sığortaçının korporativ idarəetməsində baş vermiş hər hansı əhəmiyyətli dəyişikliklər haqqında məlumat:
Mövcud deyil.

## 3.2. SIĞORTAÇININ DAXİLİ NƏZARƏT SİSTEMİ İLƏ BAĞLI MƏLUMATLAR:

3.2.1. Daxili nəzarət sisteminə ikinci və üçüncü müdafiə xətti funksiyalarını həyata keçirən struktur bölmələr daxildir:

- Risklərin idarəedilməsi funksiyası (2-ci müdafiə xətti)
- Komplayens funksiyası (2-ci müdafiə xətti)
- Aktuar funksiyası (2-ci müdafiə xətti)
- Daxili audit funksiyası (3-cü müdafiə xətti)

3.2.2. Komplayens funksiyasının həyata keçirilməsinin ümumi təsviri:
“Sığortaçılarda korporativ idarəetmə Standartları”nın 15.3.1-15.3.12-ci bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi.

## 3.3. SIĞORTAÇININ DAXİLİ AUDİT FUNKSİYASI İLƏ BAĞLI MƏLUMATLAR:

1.1.1. Daxili audit funksiyasının həyata keçirilməsinin ümumi təsviri:
“Sığortaçılarda korporativ idarəetmə Standartları”nın 16.10.1-16.10.9-cu bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi.

1.1.2. Daxili audit funksiyasının müstəqilliyinin və obyektivliyinin təmin olunmasının ümumi təsviri:
Daxili audit funksiyasının müstəqilliyi, “Sığorta fəaliyyəti haqqında” Qanununun və “Sığortaçılarda korporativ idarəetmə Standartları”nın tələblərinə uyğun olaraq, Cəmiyyətin Təşkilati strukturdakı mövqeyi ilə təmin edilir.

## 3.4. SIĞORTAÇININ AKTUAR FUNKSİYASININ HƏYATA KEÇİRİLMƏSİNİN ÜMUMİ TƏSVİRİ:

“Sığortaçılarda korporativ idarəetmə Standartları”nın 14.2, 14.3, 14.4, 14.6, 14.7 və 14.8-ci bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi.

## 3.5. SIĞORTAÇININ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ SİSTEMİ İLƏ BAĞLI MƏLUMATLAR:

3.5.1. Sığortaçının risklərinin növünün, risklərin idarə edilməsi prosesinin, risklərə nəzarət mexanizminin və risklərin idarə edilməsi funksiyasının həyata keçirilməsinin ümumi təsviri:

Sığortaçının Risk iştahası bəyannaməsində aşağıdakı risklər qeyd edilmişdir:

- Valyuta riski;
- Faiz riski;
- Kapital riski;
- Qiymət riski;
- Sığorta riskləri;
- Müştərilər üzrə konsentrasiya riskləri;
- Portfelin coğrafi bölgüsü üzrə konsentrasiya riskləri;
- Dələduzluq riski;
- İT risklər;
- Kredit riskləri;
- Likvidlik riskləri;
- İnvestisiya riskləri;
- Strateji risklər;
- Reputasiya riskləri;
- Kiber risklər;
- ESİ riskləri.

Risklərin idarə edilməsi prosesi aşağıda qeyd olunmuş siyasətlərə əsasən həyata keçirilir:

- Risklərin idarəedilməsi siyasəti;
- İnvestisiya risklərinin idarəedilməsi siyasəti;
- Likvidlik risklərinin idarəedilməsi siyasəti;
- Konsentrasiya risklərinin idarəedilməsi siyasəti;
- Əməliyyat risklərinin idarəedilməsi siyasəti;
- Bazar risklərinin idarəedilməsi siyasəti;
- Anderraytinq şərtləri, tarifləri və ehtiyatlara dair risklər üzrə siyasət.

Risklərə nəzarət mexanizmi aşağıda qeyd edilən alətlər vasitəsilə həyatə keçirilir:

- Risk iştahası bəyannəməsi;
- Risk limitləri;
- Risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və idarə edilməsi üçün risk reyestri.

Risklərin idarəedilməsi funksiyasının vəzifələri:

- "Sığortaçılarda korporativ idarəetmə Standartları"nın 12.4.1-12.4.11-ci və 12.5 bəndlərində qeyd edilən vəzifələrin icra edilməsi.

## 3.6. SIĞORTAÇININ KƏNARDAN XİDMƏT ALINMASI (AUTSORSİNQ) SİYASƏTİ, AUTSORSİNQ ÜÇÜN ƏSASLANDIRMANIN TƏSVİRİ VƏ AUTSORSİNQƏ CƏLB OLUNAN SUBYEKTLƏRİN SİYAHISI İLƏ BAĞLI MƏLUMATLAR:

Mövcud deyil.

## 3.7. SIĞORTAÇININ KORPORATİV İDARƏETMƏSİ İLƏ BAĞLI HƏR HANSI DİGƏR ƏHƏMİYYƏTLİ MƏLUMATLAR:

Mövcud deyil.

# 4. AKTİV VƏ ÖHDƏLİKLƏRİN TƏSNİFATI

## 4.1. SIĞORTAÇININ BİR İL ƏVVƏLKİ HESABAT TARİXİ İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ AKTİVLƏRİN MƏBLƏĞİ:

| Aktivlər | Hesabat tarixi (31.12.2025) | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | Fərq |
|---|---|---|---|
| **Pul vəsaitləri və onların ekvivalentləri, o cümlədən:** | **714,579.46** | **1,222,549.16** | **-507,969.70** |
| Milli valyutada olan hesabdakı vəsaitlər | 616,774.27 | 977,775.90 | -361,001.63 |
| Xarici valyutada olan hesabdakı vəsaitlər | 40,540.12 | 163,055.03 | -122,514.91 |
| Sair pul vəsaitləri | 57,265.07 | 81,718.23 | -24,453.16 |
| **İnvestisiya aktivləri, o cümlədən:** | **25,775,978.33** | **25,112,351.64** | **663,626.69** |
| İstiqrazlar | 15,411,395.33 | 12,799,851.64 | 2,611,543.69 |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | 364,583.00 | 312,500.00 | 52,083.00 |
| Səhmlər | 0.00 | 0.00 | 0.00 |
| İnvestisiya fondlarına yerləşdirilmiş aktivlər | 0.00 | 0.00 | 0.00 |
| Törəmə maliyyə alətləri | 0.00 | 0.00 | 0.00 |
| Daşınmaz əmlak (öz istifadəsi üçün olmayan) | 0.00 | 0.00 | 0.00 |
| Depozitlər | 10,000,000.00 | 12,000,000.00 | -2,000,000.00 |
| Digər investisiya aktivləri | 0.00 | 0.00 | 0.00 |
| **Debitor borclar, o cümlədən:** | **1,737,023.99** | **2,144,954.83** | **-407,930.84** |
| Birbaşa sığorta üzrə | 229,603.94 | 303,171.95 | -73,568.01 |
| Təkrarsığorta əməliyyatları üzrə | 243,373.56 | 615,717.49 | -372,343.93 |
| Sığorta vasitəçiləri üzrə | 0.00 | 0.00 | 0.00 |
| Sair debitorlar | 1,264,046.49 | 1,226,065.39 | 37,981.10 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı, o cümlədən:** | **746,671.85** | **805,839.67** | **-59,167.82** |
| Həyat sığortası sahəsi üzrə | 0.00 | 0.00 | 0.00 |
| Qeyri-həyat sığortası sahəsi üzrə | 746,671.85 | 805,839.67 | -59,167.82 |
| **Torpaq, tikili və avadanlıqlar (öz istifadəsi üçün olan)** | **611,579.89** | **334,967.50** | **276,612.39** |
| **Qeyri-maddi aktivlər** | **482,571.31** | **529,703.82** | **-47,132.51** |
| **Təxirə salınmış vergi aktivləri** | **0.00** | **314,144.22** | **-314,144.22** |
| **Digər aktivlər** | **246,075.60** | **235,629.04** | **10,446.56** |
| **Cəmi** | **30,314,480.43** | **30,700,139.88** | **-385,659.45** |

- Aktivlərin təsnifatından da göründüyü kimi 31.12.2024 tarixinə olan göstəricilər ilə müqayisədə 31.12.2025 tarixinə pul vəsaitlərində 507 969.70 AZN miqdarında azalma müşahidə olunur. İnvestisiya aktivlərində eyni dövlərə müqayisəli şəkildə nəzər yetirdikdə 663 626.69 AZN artım müşahidə edilir ki, bu da pul vəsaitlərində mövcud olan vəsaitlərin investisiya alətlərinə - istiqrazlara yerləşdirilməsi nəticəsində baş vermişdir. Həmçinin investisiya aktivlərinin strukturunda da dəyişiklik baş vermişdir ki, bu da depozitlərdə yerləşdirilmiş vəsaitlərdən 2 000 000.00 AZN məbləğin istiqraz alışına yönləndirilməsi nəticəsində baş vermişdir. İnvestisiya aktivlərinin strukturunda baş vermiş digər bir dəyişiklik isə iştirak payı metodu ilə uçota alınmış investisiyalarda baş vermişdir. Bu isə Cəmiyyətin Aqrar Sığorta Müştərək Sığorta Şirkətindəki payının 52 083.00 AZN məbləğində artması ilə əlaqədardır.

- Debitor borclar bölməsində keçən ilin müvafiq dövrü ilə müqayisədə təkrarsığorta əməliyyatları üzrə olan maddədə azalma qeydə alınmışdır ki, bunun da əsas səbəbi sığorta hadisələri üzrə ödənişlərdə təkrarsığortaçıların payı üzrə mövcud olan debitor borc məbləğlərinin mühüm bir hissəsinin ödənilməsi ilə bağlıdır.

- Aktivlərin Torpaq, tikili və avadanlıqlar bölməsində keçən ilin müvafiq dövrü ilə müqayisədə mövcud olan artımının səbəbi Mərkəzi Bankın İnformasiya Texnologiyaları və İnformasiya Təhlükəsizliyi sahəsində yeni qəbul edilmiş standartlar və digər əsas vəsaitlərin alışı ilə əlaqədardır.

## 4.2. SIĞORTAÇININ BİR İL ƏVVƏLKİ HESABAT TARİXİ İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ ÖHDƏLİKLƏRİN MƏBLƏĞİ:

| Öhdəliklər | Hesabat tarixi (31.12.2025) | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | Fərq |
|---|---|---|---|
| **Sığorta ehtiyatları, o cümlədən:** | **7,927,394.14** | **9,188,464.16** | **-1,261,070.02** |
| Həyat sığortası sahəsi üzrə | 0.00 | 0.00 | 0.00 |
| Qeyri-həyat sığortası sahəsi üzrə | 7,927,394.14 | 9,188,464.16 | -1,261,070.02 |
| **Faiz xərcləri yaradan öhdəliklər, o cümlədən:** | **0.00** | **0.00** | **0.00** |
| Bank kreditləri üzrə | 0.00 | 0.00 | 0.00 |
| Qiymətli kağızlar üzrə | 0.00 | 0.00 | 0.00 |
| Digər faiz xərci yaradan öhdəliklər | 0.00 | 0.00 | 0.00 |
| **Kreditor borcları, o cümlədən:** | **559,927.39** | **495,879.38** | **64,048.01** |
| Birbaşa sığorta üzrə | 0.00 | 0.00 | 0.00 |
| Sığorta vasitəçiləri üzrə | 105,298.20 | 94,293.88 | 11,004.32 |
| Sair kreditorlar | 454,629.19 | 401,585.50 | 53,043.69 |
| **Törəmə maliyyə alətlərindən yaranan öhdəliklər** | **0.00** | **0.00** | **0.00** |
| **Digər öhdəliklər** | **2,244,512.09** | **2,183,383.18** | **61,128.91** |
| **Cəmi** | **10,731,833.62** | **11,867,726.72** | **-1,135,893.10** |

- Cədvəldən göründüyü kimi, öhdəliklərin strukturunda baş verən əsas dəyişiklik sığorta ehtiyatlarının keçən ilin müvafiq dövrü ilə müqayisədə azalması olmuşdur. Azalmanın açıqlaması 4.3-cü bənddə qeyd edilmişdir.

## 4.3. SIĞORTAÇININ BİR İL ƏVVƏLKİ HESABAT TARİXİ İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ ÜMUMİ OLARAQ, EYNİ ZAMANDA ƏSAS SIĞORTA SİNİFLƏRİ ÜZRƏ AYRICA GÖSTƏRİLMƏKLƏ SIĞORTA EHTİYATLARININ MƏBLƏĞİ:

| Sığorta ehtiyatları | Hesabat tarixi (31.12.2025) | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | Fərq |
|---|---|---|---|
| Qazanılmamış sığorta haqları ehtiyatı | 4,187,958.03 | 4,404,227.42 | -216,269.39 |
| Zərərlər ehtiyatı | 2,633,555.80 | 3,868,348.69 | -1,234,792.89 |
| Digər sığorta ehtiyatları | 1,105,880.31 | 915,888.05 | 189,992.26 |
| **Cəmi** | **7,927,394.14** | **9,188,464.16** | **-1,261,070.02** |

| Sığorta sinifləri üzrə | Hesabat tarixi (31.12.2025) | | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) | Sığorta ehtiyatları | Xalis sığorta ehtiyatları (təkrarsığortaçıların payı çıxılmaqla) |
| **Şəxsi sığortaya aid olan əsas sığorta sinifləri, o cümlədən:** | **0.00** | **0.00** | **0.00** | **0.00** | **0.00** | **0.00** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Əmlak sığortasına aid olan əsas sığorta sinifləri, o cümlədən:** | **6,735,809.27** | **6,074,210.27** | **7,293,600.49** | **6,634,437.22** | **-557,791.22** | **-560,226.95** |
| daşınmaz əmlakın icbari sığortası | 4,769,031.78 | 4,258,399.49 | 4,966,881.98 | 4,475,400.39 | -197,850.20 | -217,000.90 |
| əmlakın yanğından və digər risklərdən sığortası | 1,966,777.49 | 1,815,810.78 | 2,326,718.51 | 2,159,036.83 | -359,941.02 | -343,226.05 |
| **Mülki məsuliyyətin sığortasına aid olan əsas sığorta sinifləri, o cümlədən:** | **0.00** | **0.00** | **0.00** | **0.00** | **0.00** | **0.00** |
| **Digər sığorta sinifləri** | **1,191,584.87** | **1,106,512.02** | **1,894,863.67** | **1,748,187.27** | **-703,278.80** | **-641,675.25** |
| digər sığorta sinifləri | 1,191,584.87 | 1,106,512.02 | 1,894,863.67 | 1,748,187.27 | -703,278.80 | -641,675.25 |
| Cəmi | **7,927,394.14** | **7,180,722.29** | **9,188,464.16** | **8,382,624.49** | **-1,261,070.02** | **-1,201,902.20** |

- 1-ci cədvəldən göründüyü kimi Sığorta ehtiyatlarının tərkibində keçən ilin müvafiq dövrü ilə müqayisədə azalma baş vermişdir. Baş vermiş azalmanın əsas hissəsi zərərlər ehtiyatının payına düşür ki, zərərlər ehtiyatının tərkibi də baş vermiş lakin bilidirilməmiş zərərlər ehtiyatından və bildirilmiş lakin tənzimlənməmiş zərərlər ehtiyatından ibarətdir. Azalmanın böyük qismi bildirilmiş lakin tənzimlənməmiş zərərlər ehtiyatının payına düşür, bu da keçən ilin sonuna mövcud olan tənzimlənməmiş zərərlərin hesabat tarixində tənzimlənməsi ilə əlaqədardır.

- 2-ci cədvəldə isə Cəmiyyətin fəaliyyət göstərdiyi əsas sığorta sinifləri üzrə sığorta ehtiyatlarının tərkibində baş verən dəyişikliklər əks etdirilmişdir. 1-ci cədvəldəki açıqlamanın davamı olaraq, əsas ığorta sinifləri olan daşınmaz əmlakın icbari sığortası və əmlakın yanğından və digər risklərdən sığortası siniflərində azalma əsas etibarilə zərərlər ehtiyatında baş verən azalma ilə əlaqədar olmuşdur.

### 4.4. SIĞORTAÇININ AKTİV VƏ ÖHDƏLİKLƏRİ İLƏ BAĞLI HƏR HANSI DİGƏR ƏHƏMİYYƏTLİ MƏLUMATLAR:

Mövcud deyil.

# 5. KAPİTALIN İDARƏ EDİLMƏSİ

### 5.1. SIĞORTAÇININ BİR İL ƏVVƏLKİ HESABAT TARİXİ İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ BALANS KAPİTALININ MƏBLƏĞİ:

| Kapital | Hesabat tarixi (31.12.2025) | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | Fərq |
|---|---|---|---|
| **Ödənilmiş nominal (nizamnamə) kapital** | **14,007,000.00** | **14,007,000.00** | **0.00** |
| **Emissiya gəliri** | **0.00** | **0.00** | **0.00** |
| **Geri alınmış kapital (səhmlər)** | **0.00** | **0.00** | **0.00** |
| **Kapital ehtiyatları, o cümlədən:** | **0.00** | **0.00** | **0.00** |
| Yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0.00 | 0.00 | 0.00 |
| Digər kapital ehtiyatları | 0.00 | 0.00 | 0.00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **5,575,646.81** | **4,825,413.16** | **750,233.65** |
| **Cəmi** | **19,582,646.81** | **18,832,413.16** | **750,233.65** |

## 5.2. SIĞORTAÇININ BİR İL ƏVVƏLKİ HESABAT TARİXİ İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ MƏCMU KAPİTALI, TƏLƏB OLUNAN KAPİTALI, O CÜMLƏDƏN ÖDƏMƏ QABİLİYYƏTİNİN TƏLƏB OLUNAN SƏVİYYƏSİ VƏ TƏLƏB OLUNAN KAPİTALIN MİNİMUM MƏBLƏĞİ, HƏMÇİNİN KAPİTAL BUFERİNİN MƏBLƏĞİ:

| Kapital | Hesabat tarixi (31.12.2025) | Bir il əvvəlki hesabat tarixi (31.12.2024) | Fərq |
|---|---|---|---|
| **Məcmu kapital** | **14,653,138.86** | **14,508,816.38** | **144,322.48** |
| **Tələb olunan kapital, o cümlədən:** | **10,000,000.00** | **10,000,000.00** | **0.00** |
| Tələb olunan kapitalın minimum məbləği | 10,000,000.00 | 10,000,000.00 | **0.00** |
| Ödəmə qabiliyyətinin tələb olunan səviyyəsi | 1,189,025.16 | 1,336,834.19 | **-147,809.03** |
| **Kapital buferi** | **4,653,138.86** | **4,508,816.38** | **144,322.48** |

## 5.3. HESABATDA SIĞORTAÇININ MƏCMU KAPİTALININ ONUN TƏLƏB OLUNAN KAPİTALINI TƏMİN EDƏ BİLMƏMƏSİ İLƏ BAĞLI HESABAT DÖVRÜ ƏRZİNDƏ YARANMIŞ HALIN (HALLARIN) DAVAM ETMƏ MÜDDƏTİ VƏ MAKSİMUM MƏBLƏĞİ, BU UYĞUNSUZLUĞU YARADAN SƏBƏBLƏR, BU UYĞUNSUZLUĞUN ARADAN QALDIRILMASI ÜÇÜN GÖRÜLƏN TƏDBİRLƏR VƏ BU CÜR TƏDBİRLƏRİN TƏSİRLƏRİNİN İZAHI:

Mövcud deyil.

## 5.4. HESABATDA SIĞORTAÇININ KAPİTALININ İDARƏ EDİLMƏSİ İLƏ BAĞLI HƏR HANSI DİGƏR ƏHƏMİYYƏTLİ MƏLUMATLAR:

Mövcud deyil.

# 6. SIĞORTAÇININ BAZAR DAVRANIŞLARI

## 6.1. SIĞORTAÇININ BAZAR DAVRANIŞLARI İLƏ BAĞLI MƏLUMATLAR:

6.1.1. Müştərilərlə ədalətli rəftar olunması, şəxsi məlumatlarının məxfiliyinin qorunması və zərərlərin vaxtında və ədalətli qiymətləndirilməsi üzrə sığortaçının strateji baxışının ümumi təsviri:

- Müştərilərlə, rəqiblərlə, dövlət müəssisələri və digər kənar təşkilatlarla istənilən əlaqələrin qurulması Azərbaycan Respublikasının qanunvericiliyinə, Cəmiyyətin maraqlarına və ədalət prinsipinə əsaslanmalıdır;

- Müştərilərə xidmət istiqamətində başlıca məqsəd müştərini cəlb etdikdən sonra da “müştəri ilə böyümək” prinsipinə əsaslanaraq, onunla uzunmüddətli əməkdaşlıq etmək, müştəriyə şəffaf, aydın və başa düşülən şəkildə məlumat vermək, müştəriyə qarşı mehriban və yardımçı mövqe nümayiş etdirmək, müştərinin hüquqlarına və vaxtına hörmətlə yanaşmaq və bununla müştəri məmnunluğunu artırılmasına xidmət etməkdir;

- Cəmiyyətin bütün əməkdaşları işlədikləri dövr ərzində və ondan sonra Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, işlədikləri Cəmiyyətin sirrini təşkil edən məxfi məlumatları qoruyub saxlamağa borcludurlar və bu məlumatların yayılmasına görə məsuliyyət daşıyırlar.

6.1.2. Əsas sığorta növləri üzrə sığorta hadisələrinin və sığortaçıya daxil olmuş şikayətlərin statistikası:

| Əsas sığorta növləri | Sığorta hadisələrinə dair məlumat | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Rüb (il) ərzində tənzimlənmiş sığorta hadisələrinin sayı | | | | | | | |
| | Rübün (ilin) əvvəlinə tənzimlənməmiş sığorta hadisələrinin sayı | Rüb (il) ərzində baş vermiş sığorta hadisələrinin sayı | Sığorta ödənişi verilmiş sığorta hadisələrinin sayı | Sığorta ödənişindən imtina verilmiş sığorta hadisələrinin sayı | Cəmi | Rübün (ilin) sonunda tənzimlənməmiş sığorta hadisələrinin sayı | Sığorta hadisələrinin ortalama tənzimlənmə müddəti | Sığorta ödənişindən imtina əmsalı | Sığorta ödənişindən imtina əmsalı | Rüb (il ərzində barəsində məhkəmə işi davam edən sığorta hadisələri əmsalı |
| | I | II | III | IV | V=III+IV | VI=(I+II)-V | VII | VIII = V/(I+II) | IX=IV/V | X |
| **İcbari:** | **1 146** | **15** | **28** | **281** | **309** | **852** | **91** | **27%** | **91%** | **13%** |
| daşınmaz əmlakın icbari sığortası | 159 | 15 | 17 | 17 | 34 | 140 | 120 | 20% | 50% | 13% |
| digər icbari | 987 | 0 | 11 | 264 | 275 | 712 | 87 | 28% | 96% | 0% |
| **Könüllü:** | **250** | **92** | **130** | **11** | **141** | **201** | **95** | **41%** | **8%** | **1%** |
| əmlakın yanğından və digər əlavə risklərdən sığortası | 52 | 5 | 9 | 4 | 13 | 44 | 224 | 23% | 31% | 20% |
| digər könüllü | 198 | 87 | 121 | 7 | 128 | 157 | 82 | 45% | 5% | 0% |
| **Cəmi:** | **1 396** | **107** | **158** | **292** | **450** | **1 053** | **92** | **30%** | **65%** | **0%** |

| Əsas sığorta növləri | Şikayətlərə dair məlumat | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Rübün (ilin) əvvəlinə həll edilməmiş şikayətlərin sayı | Rüb (il) ərzində daxil olmuş şikayətlərin sayı | Rüb (il) ərzində həll edilmiş şikayətlərin sayı | Rübün (ilin) sonuna həll edilməmiş şikayətlərin sayı | Rüb (il) ərzində təmin edilməmiş şikayətlərin sayı | Şikayətin ortalama həll edilmə müddəti | Rüb (il) ərzində həll edilmiş şikayətlərin əmsalı | Rüb (il) ərzində həll edilmiş şikayətlərdə təmin edilməmiş şikayətlərin payı |
| | I | II | III | IV=(I+II)-III | V | VI | VII=III/(I+II) | VIII=V/III |
| **İcbari:** | | | | | | | | |
| Daşınmaz Əmlakın İcbari Sığortası | yoxdur | 5 | 5 | yoxdur | 2 | 4 gün | 100% | 40% |
| **Könüllü:** | | | | | | | | |
| | - | - | - | - | - | - | - | - |

6.1.3. Əsas sığorta növləri üzrə sığorta müqavilələrinə dair məlumatlar:

| Əsas sığorta növləri | Sığorta müqavilələrinin yenilənmə əmsalı |
|---|---|
| **İcbari:** | |
| daşınmaz əmlakın icbari sığortası | 60% |
| **Könüllü:** | |
| əmlakın yanğından və digər əlavə risklərdən sığortası | 75% |

6.1.4. Şikayətlərin irəli sürülməsi və idarə olunması prosesinin ümumi təsviri:

- Müştəri məmnuniyyətinə təsir edə biləcək bütün şikayətlər və təkliflər qeydiyyata alınmalı və rəhbərliyə təqdim edilməlidir. Əməkdaşlar bu hallarda açıq və məsuliyyətli mövqe sərgiləməlidir;

- Əməkdaş müştəri tərəfindən verilmiş irad və şikayətləri peşəkar, təmkinli və səbirli şəkildə dinləməli, onları şəxsi hücum kimi qəbul etməməlidir. Mümkün olduqda məsələ yerində həll olunmalı, əks halda müvafiq struktur bölməyə yönləndirilməli və geri dönüş təmin edilməlidir.

6.1.5. Mübahisələrin həll olunması mexanizmlərinin ümumi təsviri:
Mübahisələr və fikir ayrılığı yaranarsa, əməkdaşlar sülh yolu ilə, qarşılıqlı anlaşma əsasında məsələləri həll etməyə çalışmalıdırlar. Ehtiyac olduqda, problemin həlli üçün birbaşa rəhbərlik və ya müvafiq məsul şəxslərə müraciət etməlidirlər.

## 6.2. SIĞORTAÇININ BAZAR DAVRANIŞLARI İLƏ BAĞLI HƏR HANSI DİGƏR ƏHƏMİYYƏTLİ MƏLUMATLAR:

Mövcud deyil.

İdarə Heyətinin sədri
Yusif Soltanov

Baş maliyyə inzibatçısı
Fərid Qarayev